# Əsas mesajlar: Hərəkətliliyə köməkçi məhsullar

TAP

## Dərs 1: Hərəkətlilik və müxtəlif hərəkət problemləri

- Hərəkət sərbəst və asan hərəkət etmək qabiliyyətidir. Mümkün qədər hərəkətli olmaq sağlamlıq, inklüzivlik və cəmiyyətə qoşulmaq üçün çox əhəmiyyətlidir.
- Hərəkətliliyə kömək edən məhsullardan hərəkət çətinlikləri olan hər yaşda insanlar istifadə edirlər. Onlar:
    - Şəxsin oturmasına, ayaq üstə durmasına, yeriməsinə kömək etmək üçün dəstək göstərə bilərlər və yıxılmanın qarşısını ala bilərlər.
    - Yeriyə bilməyən insanlara fərqli hərəkət metodu təmin edə bilərlər.
    - Şəxsin yaşadığı və fəaliyyətdə olduğu mühitə daxil olmasına dəstək göstərirlər.
    - Sağlamlıq problemlərini aradan qaldırmağa və ya onların qarşısını almağa kömək edə bilərlər.
- İnsanlar bir çox səbəblərdən hərəkət etməkdə problem yaşaya bilərlər, məsələn, zədə və ya yaralar, zəiflik, ağrı və ya hərəkətsizlik, iflic, amputasiya, müvazinəti və ya koordinasiyanı saxlamağı yaxşı bacarmama, hissiyyatın azalması.
- Daban yarası ayağın hər hansı bir yerində dərinin bütünlüyünün pozulmasıdır:
    - İnfeksiyalı daban yarası amputasiyaya və hətta ölümə aparıb çıxara biləcəyi üçün ciddi məsələdir.
    - Bir çox hallarda daban yaraları əmələ gələn zaman onları erkən müəyyənləşdirməklə və müalicə etməklə amputasiyanın qarşısını almaq olar.
    - Aşağıdakı sağlamlıq problemləri olan şəxslərdə daban yaraları əmələ gəlmə riski daha yüksək olub, aşağıdakıları əhatə edir: ayaqda hissiyyatın (qoruyucu hissin) itməsi, qan dövranının zəifləməsi, ayağın formasının fərqli olması, ayaq barmağının və ya ayağın amputasiyası.

## Dərs 2: Hərəkətliliyə kömək edən məhsullar

- TAP məhsul modullarına hərəkətliliyə kömək edən, icmadakı müəyyən təlim keçmiş və tələb olunan minimum resurslara malik heyət tərəfindən hər zaman təmin edilə biləcək sadə məhsullar daxildir. Aşağıya baxın:

| **Məhsul** | **Aşağıdakı şəxslər üçün faydalıdır:** |
|---|---|
| Aşağıdakıları əhatə edən **yeriməyə köməkçi vasitələr**: əl ağacları, dirsəkaltı ağaclar, qoltuqaltı ağaclar, yeriməyə köməkçi çərçivələr, rollatorlar | • Yeriyə bilən, lakin təhlükəsiz şəkildə yerimək və ya uzaq məsafələrə yeriyərək getmək üçün əlavə dəstəyə ehtiyacı olan şəxslər<br>• Yalnız bir ayağının üzərinə ağırlıq sala bilən, məsələn, amputasiya olunmuş və ya ayaq zədəsi olmuş şəxslər |
| **Portativ rampalar** – hər hansı bir yerə bərkidilməyən rampalardır. | • Təkərli oturacaqdan, rollatordan və ya yeriməyə köməkçi çərçivədən istifadə edən şəxslər<br>• Kiçik pilləkəni olan yerlərə daxil olmağa ehtiyacı olan şəxslər<br>• Portativ rampanı qaldırmaq üçün kifayət qədər gücü olan və ya bunu etmələrinə kömək göstərilən şəxslər |

| Məhsul | Aşağıdakı şəxslər üçün faydalıdır: |
|---|---|
| Zəifləmiş və ya bir yerdən başqa bir yerə təhlükəsiz şəkildə hərəkət etmək üçün müvazinətini kifayət qədər qoruya bilməyən şəxslərə dəstək göstərən **tutacaqlar**. | • Yataq otağında, vanna otağında, ayaqyolunda hərəkət edərkən, yaxud addımlayarkən əlavə dəstəyə ehtiyacı olan şəxslər<br>• Bir əllə və ya hər iki əllə tutula bilər<br>• Onlar evdə və ya ictimai yerlərdə quraşdırıla bilər |
| **Transfer üçün sürüşkən lövhələr** – insanların bir yerdən başqa yerə hərəkət etməsinə kömək edirlər. | • Təhlükəsiz şəkildə ayaq üstə durmaqda və ya ayaqları üzərində çəki daşımaqda çətinlik çəkən şəxslər<br>• Bir yerdən başqa yerə hərəkət etmək üçün başqa bir şəxsin köməyinə ehtiyac duyan şəxslər |
| **Müalicəvi ayaqqabı** – ayaqları qorumağa və dəstəkləməyə kömək edən xüsusi cəhətlərə malik ayaqqabılardır. | • Dabanında yara əmələ gəlmə riski olan şəxslər |

- Hərəkətliliyə kömək edən müəyyən məhsullar mütləq ixtisaslı təlim keçmiş, daha çox heyətə və daha çox resurslara malik olan xidmətlər tərəfindən təmin edilməlidir. Bu məhsullar TAP-a daxil edilməmişdir. Misallar: təkərli oturacaqlar və yastıqlar, aşağı ətraf protezləri, aşağı ətraf ortezləri, arxa tərəfə yerləşdirilən yeriməyə köməkçi çərçivələr, ayaq üstə dayanmağa köməkçi çərçivələr, uzanma dəstəkləri.

## Dərs 3: Hərəkətliliyə köməkçi məhsulların yoxlanılmasını necə həyata keçirməli

- Hərəkət problemləri olan şəxsin aşağıdakılardan faydalana bilib-bilməyəcəyini öyrənmək üçün hərəkətliliyi yoxlama formasından istifadə edin:
  - Hərəkətliliyə köməkçi məhsullar
  - Köməkçi məhsulların digər növləri
  - Digər xidmətlərə yönləndirmə
- Bu formada altı bölmə vardır:
  1. Şəxs haqqında məlumat
  2. Hərəkətliliyi və sağlamlıq riskini sadə yoxlama:
     - Hərəkətliliyini qəfildən itirmiş bir şəxsi səhiyyə müəssisəsinə yönləndirin;
     - İki yaşında və ya daha böyük olan və yeriyə bilməyən uşaqları reabilitasiya xidmətinə yönləndirin.
     - Yıxılma riski olan şəxsin köməkçi məhsula və (və ya) reabilitasiya xidmətinə yönləndirilməyə ehtiyacı ola bilər.
     - Təzyiq nəticəsində əmələ gələn yarası olan şəxslərə məsləhətlər vermək və səhiyyə xidmətinə yönləndirmək.

- Aşağıdakı risk göstəriciləri olan şəxsin ayağının yoxlanılmasını həyata keçirin **və** həmin şəxs mütəmadi olaraq səhiyyə müəssisəsində olmursa, onu səhiyyə müəssisəsinə yönləndirin:
  - Diabet, cüzam, ürək və (və ya) böyrək xəstəlikləri
  - Ayaq / baldır zədəsi, xəsarəti və ya şişmə və (və ya) amputasiya
  - Əvvəllər olmuş ayaq zədəsi
  - Siqaret çəkən, çoxlu alkoqol qəbul edən, tez-tez ayaqyalın gəzən şəxs

3. Ayağın yoxlanılması (ayağın yoxlanılmasına dair təlimat kitabçasına baxın)
4. Hərəkətliliyə köməkçi məhsullara dair sadə yoxlama sualları
5. Digər köməkçi məhsullar
6. Aşağıdakıların daxil ola biləcəyi plan:
   - Potensial olaraq, köməkçi məhsulların digər növlərinin (görmə qabiliyyətinə, eşitmə qabiliyyətinə, özünəqulluğa, ünsiyyətə, başa düşməyə kömək etmək üçün) yoxlanılması;
   - Hərəkətliliyə köməkçi sadə məhsullardan istifadə üçün qiymətləndirmək;
   - Şəxsi ayaqlara qulluq və münasib ayaqqabılar haqqında öyrətmək;
   - Digər xidmətlərə yönləndirmək;
   - Müşahidəyə nə zaman ehtiyac olacağını qərarlaşdırmaq və yaxşı olar ki, müşahidə üçün vaxt təyin etmək.